**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**
**Q Ə R A R**

**№ 36**

Bakı şəhəri, 13 mart 2003-cü il

**«İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlıməsələlər barədə**

«İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 16 noyabr tarixli 814 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Nazirlər Kabineti **QƏRARA ALIR**:

1. «İnteqral sxem topologiyalarının dövlət qeydiyyatına alınması və şəhadətnamənin verilməsi Qaydaları» təsdiq edilsin (əlavə olunur).

2. «İnteqral sxem topologiyalarının Dövlət Reyestrinin aparılması Qaydaları» təsdiq edilsin (əlavə olunur).

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş Naziri** **A. Rasi-zadə**

*Azərbaycan Respublikası Nazirlər*
*Kabinetinin 2003-cü il 13 mart*
*tarixli 36 nömrəli qərarı ilə*
*təsdiq edilmişdir*

# İnteqral sxem topologiyalarının Dövlət qeydiyyatına alınması və şəhadətnamənin verilməsi

# Q A Y D A L A R I

Bu Qaydalar «İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 16 noyabr tarixli 814 nömrəli Fərmanının icrası məqsədilə hazırlanmışdır və inteqral sxem topologiyalarının (bundan sonra – topologiyanın) dövlət qeydiyyatından keçirilməsi qaydalarını, onun qeydiyyatı haqqında şəhadətnaməni verilməsini, topologiyanın qeydiyyatı üçün iddia sənədinə əlavə olunan material və sənədlərin siyahısını müəyyən edir.

## 1. Ümumi müddəalar

1.1.Topologiya onun qorunduğu müddətdə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində (bundan sonra- Agentlik) könüllü olaraq dövlət qeydiyyatından keçirilə bilər.

1.2. Aşağıdakı şəxslər topologiyanı dövlət qeydiyyatından keçirə bilərlər:

Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri olan hüquq sahibləri ;

topologiyanın hüquq sahibləri olan və Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq, başqa dövlətlərin fiziki və hüquqi şəxsləri;

bu bənddə göstərilən şəxslərin varisləri, həmçinin müqavilə ilə müstəsna əmlak hüququnu almış şəxslər.

## 2. Topologiyanın qeydiyyatı üçün iddia sənədinə əlavə olunan material və sənədlərin siyahısı

2.1. Topologiyanın dövlət qeydiyyatından keçirilməsi üçün iddia sənədinə aşağıdakı material və sənədlər əlavə olunur:

ərizə;

2.1.2. topologiyanı eyniləşdirən materialların ifadə formasından biri (rəsm, çertyoj, foto, topologiyanın özü referatla birlikdə aydın şəkildə göstərilməklə);

2.1.3. qeydiyyat üçün ödənilmiş rüsum haqqında qəbz;

2.1.4. sənədlər təmsilçi vasitəsilə təqdim edilərsə, təmsilçiliyi təsdiq edən sənəd.

Qeydlər

Sənədlər Azərbaycan dilində təqdim edilməlidir. Sənədlərdən hər hansı biri digər dildə olarsa, həmin sənədin Azərbaycan dilinə mövcud qaydada təsdiq edilmiş tərcüməsi əlavə olunmalıdır;

topologiyanın dövlət qeydiyyatı üçün sənədlər biləvasitə müstəsna hüquq sahibi tərəfindən, yaxud qanunvericiliklə müəyyən edilmiş qaydada onun təmsilçisi vasitəsilə təqdim edilə bilər;

topolociyanın dövlət qeydiyyatı üçün iddia sənədi bir topologiyaya aid olmaqla, Agentliyə bilavasitə təqdim olunur və ya poçtla göndərilir;

qeydiyyat üçün iddia sənədi bir nüsxədə təqdim edilir və materialların düzgünlüyünə görə məsuliyyəti sənədi təqdim edən iddiaçı daşıyır;

iddia sənədinə daxil olan material və sənədlərin forma və məzmununa dair təlimat Agentlik tərəfindən müvafiq qaydada təsdiq edilir.

## 3. Topologiyaya əmlak hüquqlarının keçməsinin qeydiyyatı

3.1. Qeydiyyatdan keçirilmiş topologiyaya əmlak hüququnun başqa fiziki və ya hüquqi şəxsə tam keçməsi haqqında müqavilə Agentlikdə qeydiyyatdan keçirilir və həmin andan qüvvəyə minir.

3.2. Qeydiyyatdan keçirilmiş topologiyaya əmlak hüququnun tam keçməsi haqqında müqavilənin qeydiyyatının aparılması üçün iddiaçı ərizə təqdim edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

tərəflər arasında imzalanmış müqavilənin surəti və ya qanunvericiliyə uyğun olaraq müqavilədən təsdiqlənmiş çıxarış, o cümlədən zəruri olan məlumatlar (müqavilənin müddəti, topologiyaının istifadəsinə aid müddəti, həcmi və istifadə üsulları, ödəniş qaydaları, tərəflərin adı və ünvanı) daxil olmaqla;

topologiyanın dövlət qeydiyyatı haqqında şəhadətnamənin əsli;

qeydiyyat üçün ödənilmiş rüsum haqqında qəbz.

3.3. Topologiyaya əmlak hüququnun başqa fiziki və hüquqi şəxslərə verilməsi barədə müqavilə tərəflərin razılığı əsasında Agentlikdə qeydiyyatdan keçirilə bilər. Belə razılıq olduğu halda tərəflər ərizə təqdim edirlər və ərizəyə bu Qaydaların 3.2-ci bəndində göstərilən müvafiq sənədlər əlavə olunur.

3.4. Qeydiyyatdan keçirilmiş topologiyaya əmlak hüquqları vərəsəlik üzrə keçdikdə, iddiaçı ərizə təqdim edir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

qeydiyyat üçün odənilmiş rüsum şaqqında qəbz;

vərəsəlik haqqında şəhadətnamənin surəti.

## 4. Dövlət qeydiyyatı üçün sənədlərə baxılması

4.1. Agentliyə təqdim edilən qeydiyyat üçün iddia sənədinə daxilolma nömrəsi qoyulur və onun daxilolma tarixi qeydə alınır. Qeydiyyat üçün sənədlər bu Qaydaların 2-ci bəndinin tələblərinə uyğundursa, iddia sənədi baxılmaq üçün qəbul edilir.

İddiaçıya, yaxud onun təmsilçisinə qeydiyyat üçün sənədin qəbulu barədə
(daxilolma nömrəsi, tarixi və qəbul olunan sənədlərin siyahısı göstərilməklə) arayış verilir.

4.2. Qeydiyyat üçün sənədlərə Agentlikdə bir ay müddətində baxılır. Həmin sənədlər bu Qaydaların 2-ci bəndinin tələblərinə uyğun olaraq yoxlanılır, yoxlamanın müsbət nəticəsinə əsasən Agentlik tərəfindən iddiaçıya formada (əlavə olunur) inteqral sxem topologiyasının dövlət qeydiyyatı haqqında şəhadətnamə verilir.

Qeyd. Qeydiyyatdan keçirilmiş topologiyaya əmlak hüququnun vərəsəlik və ya müqavilə əsəasında fiziki və ya hüquqi şəxsə tam keçməsi faktı Agentlikdə dövlət qeydiyyatından keçirildikdən sonra, topologiyaya əmlak hüququ sahibinin dövlət qeydiyyatı haqqında yeni şəhadətnamə almaq hüququ vardır.

4.3. Qeydiyyata alınmış topologiya haqqında məlumat müəyyən edilmiş qaydada Dövlət Reyestrinə daxil edilir və qeydiyyat haqqında məlumatlar rəsmi dərc olunur.

Məlumatın mətnini və anotasiyaların məzmununu iddiaçı hazırlayır və Agentliklə razılaşdırır.

Rəsmi məlumatın dərc olunması ilə bağlı xərcləri iddiaçı ödəyir. Agentlik depozitə götürülmüş materialların lazımi qaydada saxlanılmasını

təmin edir. Agentliyin sorğusuna əsasən, yaxud iddiaçının təşəbbüsü ilə dövlət qeydiyyatı haqqında məlumat rəsmi dərc olunanadək ərizədə göstərilən materiallara düzəliş və əlavələr etmək və ya onlarda dəqiqləşdirmə aparmaq olar.

### 5. Topologiyanın və müqavilənin dövlət qeydiyyatına alınmasından imtina

Bu Qaydalara uyğun olaraq qeydiyyat üçün müvafiq sənədlər təqdim edilmədikdə, habelə ilkin dövlət qeydiyyatından keçirilməmiş topologiyaya müstəsna hüquqların vərəsəlik və ya müqavilə əsasında keçməsi təqdirdə, topologiyanın qeydiyyyatdan keçirilməsindən imtina edilir.

---

«İnteqral sxem topologiyalarının dövlət qeydiyyatına alınması və şəhadətnamənin verilməsi Qaydaları»na
ə l a v ə

Azərbaycan Respublikası
Müəllif Hüquqları Agentliyi

**İnteqral sxem topologiyasının Dövlət qeydiyyatı haqqında**

## ŞƏHADƏTNAMƏ

**№ _________**

**BAKI**

İnteqral sxem topologiyasından istifadəyə müstəsna hüquq sahib(lər)inin adı ________________________________
___________________________________________________________
___________________________________________________________

İnteqral sxem topologiyasının adı ______________________

Qeydiyyat nömrəsi _______________________________________

Qeydiyyat tarixi _________________________________________

İfadə forması ____________________________________________

İnteqral sxem topologiyasından istifadəyə müstəsna hüququn fəaliyyət müddətinin başlandığı tarix ______________
___________________________________________________________

İddia № __________

**«İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq və «İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2002–ci il 16 noyabr tarixli 814**

**nömrəli Fərmanı ilə verilən səlahiyyətlər əsasında Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi**

___________________________________________________

(inteqral sxem topologiyasından istifadəyə müstəsna hüquq sahibi(lər)nin soyadı, adı, atasının adı)

___________________________________________________

______________________ inteqral sxem topologiyasını

200 il __________ tarixdə qeydiyyatdan keçirmiş və bu

şəhadətnaməni vermişdir.

_________________ SƏDR

M.Y.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 mart tarixli 36 nömrəli qərarı ilə təsdiq edilmişdir*

## Qeydiyyata alınmış inteqral sxem topologiyalarının Dövlət Reyestrinin aparılması

## QAYDALARI

Bu Qaydalar «İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 16 noyabr tarixli 814 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə hazırlanmışdır və qeydiyyata alınmış topologiyaların Dövlət Reyestrinin aparılması qaydalarını tənzimləyir.

1. Qeydiyyata alınmiş topologiyaların Dövlət Reyestri (bundan sonra-Reyestr) topologiyaların qeydiyyata alınması, qeydiyyata alınması haqqında şəhadətnamənin verilməsi və qeydiyyata aid dəyişikliklərin edilməsi üçün rəsmi sənəddir.

2. Reyestr Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində saxlanılan nömrələnmiş, qaytanlanmış və möhürlə təsdiqlənmiş kitabdır.

3. Reyestrin aparılması ilə bağlı beynəlxalq qaydalara və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının müvafiq standartlarına əsaslanaraq qeydiyyat zamanı Reyestrə aşağıdakı göstəricilər daxil edilir:

qeydiyyatdan keçirilmiş topologiyaya verilən şəhadətnamənin nömrəsi;

qeydiyyatdan keçirilmiş topologiyanın qeydiyyat nömrəsi;

qeydiyyat tarixi;

qeydiyyatdan keçirilmiş topologiyanın adı;

topologiyanın qeydiyyatdan keçirilməsi üçün iddia sənədinin nömrəsi və tarixi;

topologiyadan ilkin istifadə tarixi və ya qeydiyyata alındığı tarix;

müəllif(lər)in və ya istifadəyə müstəsna hüququn digər sahibi(lər)nin soyadı, adı, atasının adı, ünvanı, ölkənin kodu (hüquqi şəxs olduğu halda-adı, ünvanı, ölkənin kodu).

4. Reyestrə aşağıdakı məlumatlar əlavə edilə bilər:

topologiyaya əmlak hüququnun digər şəxsə tam keçməsinə və ya qismən vrilməsinə dair müqavilənin və ya vərəsəlik haqqında şəhadətnamənin olması barədə məlumat;

müstəsna hüquq sahibi(lər)nin adlarının dəyişdirilməsi haqqında məlumat;

topologiyadan istifadəyə müstəsna hüququn qorunması müddəti haqqında məlumat.

5. Reyestlə yanaşı müstəsna hüquq sahibi(lər)nin xüsusi arxiv qovluğunda aşağıdakı məlumatlar saxlanılır:

qeydiyyata alınmaqla bağlı iddia ərizəsi;

maddi daşıyıcıda olan (əks etdirilən) inteqral sxem topologiyası (referatla birgə);

lazım olduğu halda əmlak hüquqlarını təsdiq edən sənəd;

lazım olduğu halda nümayəndənin etibarnaməsinin surəti;

lazım olduğu halda topologiyaya və onun rəsmi qeydiyyatına dair sənədlərin notarial qaydada təsdiq olunmuş tərcüməsi.

6. İnteqral sxem topologiyalarının Reyestrinə daxil edilən məlumatlar əks hal sübut olunmayıbsa, doğru sayılır. Reyestrə daxil edilmiş məlumatların doğruluğuna iddiaçı məsuliyyət daşıyır.

7. İstənilən şəxs Reyestrdə ona aid olan və onu maraqlandıran məlumatlarla tanış ola bilər və müəyyən ödəniş haqqı ödəməklə Reyestrdən təsdiq edilmiş çıxarış ala bilər.

---

Əlavə 1.

**Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi**

| Ünvan: | | |
|---|---|---|
| Sənədlərin təqdim edilmə tarixi | Daxilolma nömrəsi | Qeydiyyat tarixi |
| | | |

***İnteqral sxem topologiyalarının Dövlət qeydiyyatı üçün***

**ƏRİZƏ**

Aşağıda sadalanan sənədləri təqdim edərək inteqral sxem topologiyasının qeydiyyata alınmasını xahiş edirəm.

1.İnteqral sxem topologiyasının adı ________________________________________

____________________________________________________________________

____________________________________________________________________

2.Müstəsna hüququn sahibi (tam məlumatlar göstərilir)______________________

____________________________________________________________________

3.Müəllif(lər) (tam məlumatlar göstərilir) __________________

____________________________________________________________________

4. Yazışma üçün ünvan _______________________________________________
_________________________________________________________________________

5. Əgər topologiyadan istifadə edilibsə, istifadə olunduğu ilk tarix və yer_________
__________________________________________________________________________

6. Qeydiyyat üçün ödəniş haqqında qəbz ____________________________________

7. Ərizəyə qoşulan , topologiyanı eyniləşdirən və depozitə götürülən materiallar: (rəsm, çertyoj, foto, inteqral sxem referatla birlikdə) _______________________
__________________________________________________________________________
__________________________________________________________________________

8. Ərizəyə əlavə edilən sənədlər («X» işarəsi ilə qeyd edilməli):
8.1. müstəsna hüquqların sahibi olduğunu təsdiqləyən sənədin surəti
8.2. nümayəndənin adına etibarnamə
8.3. Azərbaycan dilinə tərcümə edilmiş sənədin adı __________
__________________________________________________________________________

9. Mən topologiyaya müstəsna hüququn sahibi (soyadı, adı və atasının adı) ____
__________________________________________________________________________

bununla təminat verirəm ki, ərizədə göstərilən məlumatlar düzgündür və depozitə götürülmək üçün təqdim olunan materiallara uyğundur.

İmza_________________________

"____"___________200 -ci il

Əlavə 2.

Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi

**Topologiyaya əmlak hüququnun başqa fiziki və ya hüququ şəxsə tam keçməsi haqqında Müqavilənin qeydiyyata alınmasına dair**

**Ə R İ Z Ə**

(lazım olanı qeyd edin )

İnteqral sxem topologiyası:

1) Qeydiyyatdan keçməyib____________________________________

2) Qeydiyyatdan keçmiş, Dövlət qeydiyyatı haqqında Şəhadətnamənin № ___

Qeydiyyat №______ qeydiyyat tarixi _________________________

3) İnteqral sxem topologiyasının adı_____________________________

__________________________________________________________

Hüquq sahibi______________________________________________

(fiziki şəxsin adı, soyadı və ya hüquqi şəxsin adı və ünvanı)

__________________________________________________________

Müqavilə üzrə hüquq varisi __________________________________

(fiziki şəxsin adı, soyadı və ya hüquqi şəxsin adı və ünvanı)

__________________________________________________________

Əlavə olunur:

1) Müqavilənin surəti və ya qanunvericiliyə uyğun olaraq müqavilədən təsdiqlənmiş çıxarış;

2) Topologiyanın rəsmi qeydiyyatdan keçirilməsi haqqında Şəhadətnamənin əsli;

3) Dövlət rüsumunun ödənilməsi haqqında sənəd.

Hüquq sahibinin imzası ___________________

“____” _________ 200 ci il.

Əlavə 3.

**Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi**

**Topologiyaya əmlak hüququnun başqa fiziki və ya hüquqi şəxsə verilməsi haqqında Müqavilənin qeydiyyata alınmasına dair**

**Ə R İ Z Ə**

(lazım olanı qeyd edin)

İnteqral sxem topologiyası:

1) Qeydiyyatdan keçməyib_______________________________________

2) Qeydiyyatdan keçmiş, Dövlət qeydiyyatı haqqında Şəhadətnamənin № ___Qeydiyyat № _____ qeydiyyat tarixi ____________________

3) İnteqral sxem topologiyasının adı____________________________
__________________________________________________________

Hüquq sahibi ____________________________________________
(fiziki şəxsin adı, soyadı və ya hüquqi şəxsin adı və ünvanı)
__________________________________________________________

Müqavilə üzrə hüquq varisi __________________________________
(fiziki şəxsin adı, soyadı və ya hüquqi şəxsin adı və ünvanı)
__________________________________________________________

Əlavə olunur:

1) Müqavilənin surəti və ya qanunvericiliyə uyğun olaraq müqavilədən təsdiqlənmiş çıxarış;

2) Topologiyanın rəsmi qeydiyyatdan keçirilməsi haqqında Şəhadətnamənin əsli;

3) Dövlət rüsumunun ödənilməsi haqqında sənəd.

Hüquq sahibinin imzası _______________

« ____» _________ 200 il.

Əlavə 4.

**Qeydiyyata alınmış İnteqral sxem topologiyalarının Dövlət Reyestrindən çıxarışı üçün ödənişlərin miqdarı**

| **№-si.** | ***hüquq sahibi*** | ***Ödəniş haqqının miqdarı*** |
|---|---|---|
| **1.** | Azərbaycan Respublikasının vətəndaşları və ya hüquqi şəxslər üçün | Şərti maliyyə vahidinin 3,0 misli |
| **2.** | Xarici hüquqi şəxslər və ya əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün | 30 ABŞ dolları |